# "Qarlı aşırım" dan görünənlər və görünməyənlər...



Mahrux Dövlətzadə

***BSU-nun doktorantı***

***"Ben, Gök gibi yüce, Tanrının yarattığı Türklerin Bilge Kağanı!... Derlenip toparlanmanın, birlik, beraberliğin, dirlik düzenliğin güc, küvvet ve devlet demek olduğunu, ayrılıp parçalanmanın, aldanıp dağılmanın ise ölüm demek olduğunu buraya kazıdım. Siz de bunlara bakarak öğrenin, bilin, anlayın! Ey Türk halkı ve beyleri! Daha önce yanıldığınız gibi yine yanılabilirsiniz!"***

***Orxon-Yenisey abidələri. Kultigin yazıları.***

Bəzi insanlar dünya onu görsün deyə, bəzi insanlar isə özü dünyanı görmək üçün zirvəyə can atar...

...Zirvədəyəm... Sözün ucala bildiyi zirvədə... Keçib gəldiyimiz yollara bir də aşırımdan baxmaq istədim, çünki arxada qoyduğumuz yolun oradan aydın görünəcəyindən əminəm ...Aşırımın ən uc nöqtəsindəyəm... Buraya niyə gəldim? Özümüzü görməyə, özümüzə baxmağa... Özümüzün arayışındayam...

...Zirvədəyəm... Hər tərəf qarla örtülüb. Bəli, "Qarlı aşırım"ı oxuyuram. Azərbaycanı yaxşı görmək üçün "Qarlı aşırım"dan baxmaq qərarına gəldim. Mən də qələmdən vərəqəcən bir aşırım keçib çətin bir yol qət edəcəyəm. "Qarlı aşırım"da büdrəmədən addımlamaq üçün isə, bütün elmi fəaliyyətində, ədəbi-tənqidi yaradıcılığında sözə zirvədən başlayan professor Təyyar Salamoğlunun "Qarlı aşırım"dan keçən yollar" monoqrafiyası yol bələdçim oldu... Elə "Qarlı aşırım"ı illərdən sonra təkrar oxumağımın səbəbi də istər bədii, istərsə də ədəbi mətnlərə münasibətdə, bütün elmi araşdırmalarında "yenidən oxu" konseptini əsas yanaşma metoduna, dəyərləndirmə üsuluna çevirən alimin monoqrafiyasının " diktəsi" idi.

Tarix onu öyrənəndə yaxşı bir vasitə, öyrənməyəndə kəskin silah olur. Tarixi tarix kitablarından öyrənmək, bəlkə də, hər kəsin öhdəsindən gələcəyi bir iş deyil, amma tarixi mövzuda bədii əsərlərdən həm estetik zövq alarsan, həm də keçmişi yaşamış kimi olarsan. Bu baxımdan Fərman Kərimzadənin yaradıcılığı, xüsusilə, "Qarlı aşırım" tariximizin düyün yeridir. Nəzərə alsaq ki, "düyün" sözün hər mənasında bağlı olduğu dayağın ən möhkəm yeridir, o zaman bu "düyün"ü açmadan nə keçmiş, nə də gələcək barədə oxuduqlarınızı anlamazsınız.

Aşırımın elə bir yerindəyəm ki, hər tərəf görünür, hətta deyərdim, iki qapılı bu dünyanın hər yeri. Hər kəs bu iki qapının arasında yolçudur. İnsan var, getdikcə qalır, insan var, qaldıqca gedir. Hər biri ayrı, hər biri fərqli bu yolçuların kimisi yolu gedərkən belə görünmür, kimisi də yolunu başa vurmağına rəğmən hələ də görünür, xatırlanır. Şərəfi ilə, namusu ilə yolçuluğunu edən, gəlimli-gedimli, son ucu ölümlü bu dünyadan dörd əllə yapışmasa da, heç nəyinə biganə qalmayan, elə bu səbəbdən də unudulmayan Fərman Kərimzadənin işığında aşırımda qərar tutdum, seyr edirəm... Hər səhifəsi, hər sətri ilə torpaq, yurd, el qeyrəti, igidlik, şərəf, namus, yenilməzlik, əyilməzlik düşüncəsi, özünüdərk, özünəinam təlqin edən, üzərində kifayət qədər üzünmuddətli yaradıcılıq axtarışları apardığı bu möhtəşəm "Qarlı aşırım" romanı(1957-1967) ilə sosialist realizminin ədəbiyyatda hegemon olduğu dövrdə böyük sənətkarlıq manerası işlədərək, milli-mənəvi dəyərlərə xüsusi həssaslıqla yanaşan Fərman Kərimzadə sovet ədəbiyyatı ənənələrinin ədəbi-estetik kriteriyalarından cəsarətlə uzaqlaşaraq saxta və qondarma "beynəlmiləlçiliy"i milli tarixi yaddaşla əvəzlədi. Eyni zamanda, Kərbəlayi İsmayıl kimi qeyri-adi milli xarakter yetirən bir xalqın rus əsarəti və işğalı altında yaşamasının mümkünsüz və yolverilməz olduğunu gizli bir manifest şəklində irəli sürdü. Nə idi bu əsəri bu qədər uğurlu edən, təsirli qılan? Bu uğur- xalqının faciəli taleyini canlı qələmə ala bilməsi ürəyində Ağrı boyda dərd daşıyan roman müəllifinin xoşbəxtliyi idimi? Özü də, əsərləri də xalqının faciəli taleyinin bir parçasına çevrilən, bahar arzularına sərt qışın qarı ələnən, ədəbi taleyi ilə şəxsi taleyi arasında bənzərlik olan kəm taleli sənətkar - hələ 1948-ci ildə uşaqlığını Vedidə qoyub balaca ürəyinə elə vətən boyda dərd yüklənərək doğma yurd-yuvasından didərgin salınan Fərman Kərimzadə ömrünün sonuna kimi bu dözülməz yurd həsrəti ilə, bu zəhər dadan dərdlə yaşadı. Mart ayında dünyaya gəlib elə martda da dünyadan köçən yazıçının ömrünə bahar gəlmədi, yollarına yağan qarlar ərimədi, keçilməz aşırımları bitmədi, tükənmədi ...Vedinin yanı dağlar, ürəyi, canı dağlar, Burda bir el var idi, Siz deyin, hanı dağlar ?!. - deyə qəlbləri titrədən sualını, kim bilir, neçə min dəfə ürəyində təkrar edən Vedibasarın qələmlə döyüşən təəssübkeş oğlunun ürəyi 1989-cu ildə Vedidən yenidən qaçqın düşən yurddaşlarının dərdinə dözmədi. Bu ürək ata-baba yurdundan həmvətənlərinin son nəfərinə kimi didərgin salınmasına necə dözə idi?!. Axı Vətən təkcə ölməyə deyil, elə yaşamağa da yaxşı olmalıdır...

Bir çoxları ideologiyanın tələbinə uyğun ədəbi əsərlər yazanda o, yaddaşımızın başı üzərindəki qatı dumanları yardı, üstünə çökmüş hisi, pası, unutqanlıq qalıqlarını bir kənara atıb əsl ədəbiyyat nümunələri yaratdı. Zamanın tələbinə uyğun əsər yazmaq olar, amma tələbin ziddinə gedərək yaratmaq zamanı qabaqlamaq idi, vaxtdan ucada dayana bilmək idi. F.Kərimzadə sənətkar kimi də, şəxsiyyət kimi də çətin olanın öhtəsindən gəlmişdi. Ömrün aşırımlarını aşa bilməsə də, ölümsüzlüyün zirvəsinə ucalmış, tarixin aşırımlarını aşaraq ədəbiyyatımızın "Qarlı aşırım"ının zirvəsində yer alan, elə Ağrı dağının özü qədər əbədi olan Fərman Kərimzadənin ruhumuza xitab edən varlığını, düşüncələrini, xarakterini yaratdığı Abbasqulu bəydə, Kərbəlayı İsmayılda, Şabanzadədə, Şıxəlioğlunda, Alı Əliyevdə, Əli Tağızadədə zərrə-zərrə, qətrə-qətrə hiss edirik. Yazıçı Yeganə Kərimzadənin ( qızı) də qeyd etdiyi kimi: "Fərman Kərimzadənin yazdığı əsərlər, yaratdığı obrazlar öz milli koloriti, milli özünəməxsusluğu, milli düşüncə tərzi ilə seçilirdi. O, yazdığı əsəri, təsvir etdiyi obrazı yaşayırdı."

"Mən belə hökumət tanımıram!"- Bu sözləri F. Kərimzadə qəhrəmanı Kərbəlayi İsmayılın dili ilə yazanda sovet hökumətinin qılıncının qəbzəsinin tiyəsindən də kəskin olduğu vaxtlar idi.

Professor Təyyar Salamoğlu monoqrafiyada yazır : "Olsun ki, romanı yazarkən Kərbəlayının Usuboğlunun qapısına gedərkən geydiyi kəfəni, ilk öncə, Fərman Kərimzadə özü geymişdi. Çünki bu romanın daxili qatlarında müəllifini dar ağacına apara biləcək çox mətləblər əks olunmuşdur". Təyyar müəllimin bu təsbiti həm də onun göstəricisidir ki, kommunizm ilğımının puç və mənasız olduğunu, qanlar bahasına bərqərar olub hələ başımıza çox müsibətlər açacağını müdrik yazıçı fəhmi ilə çoxlarından əvvəl roman müəllifi hiss etmişdi.

Fərman Kərimzadə həm rəssam, həm də mətbuatda fəallıq göstərən biri olsa da, ziddiyyətlər, təbəddülatlarla dolu dövr, zaman və cəmiyyətdə, onun problemini ifadə etmək üçün ictimai-siyasi, sosial ziddiyyətlərin kəskinləşdiyi, hadisələrin fərdi, şəxsi sferadan çıxıb milli və qlobal problemlərlə əlaqələndiyi məqamlarda aktuallaşan roman janrını məqsədəuyğun hesab edərək "Qarlı aşırım" romanını yazdı. Bu əsərlə ilğıma aldanmış, bəylik qürurunun tapdanıb boyunduruq altında yaşamağa - istilaya sürüklənən xalqı aşırıma qaldırıb keçib gəldiyi ucsuz-bucaqsız dolanbac yolları, dibində həqiqətlərin yatdığı 40 arşınlıq dərin uçurumları göstərmək istəyirdi.

"Qarlı aşırım" romanında obrazlar qalereyası olduqca real və zəngindir. Ziddiyyətli, koloritli obrazlar, yüzilliklərin o üzündəki tarixi məqamlar və yaşantılar, xalqın milli və mənəvi yüksəlişi, uğurlar və məğlubiyyətlər, şərlə xeyrin amansız mübarizəsi və bütün bunların fonunda yazıçı şəxsiyyəti. Yazıçı əsərdə epizodik məqamlardan belə məqsədinə çatmaq üçün ustalıqla istifadə etmişdir. O, Xəlilin tutduğu kəkliyə oğluna aparmaq istədiyi hədiyyə kimi, Abbasqulu bəyin gözəl məxluq kimi, Talıbovun əti dadlı quş kimi baxmasından, Qəmlonun isə təbiətinə məxsus qəddarlıqla bu quşu çarığının altına salıb əzməsindən eyni ahəngdə söz açmış, Abbasqulu bəyin dilindən dediyi: "Quşlar yazıq məxluqdur, xüsusən gözəl quşlar. Şöhrətləri də böyükdür, bəlaları da. Hamı kəklik, qırqovul əti yemək istəyir. Sərçə heç kimin yadına düşmür"- sözlərinin emosional bədii təsiri ilə vətənin dərdlərini özünəməxsus tərzdə dilə gətirmiş, həm də kiçik bir detalda obrazların dünyaya fərqli baxışını ifadə edə bilmək imkanı qazanmışdır.

"Qarlı aşırım" romanının epik kontekstində əzəmətli milli xarakter kimi ucalan Abbasqulu bəy türk kişisinin mental xüsusiyyətlərini özündə cəmləşdirir: mərddir, qeyrətlidir, igiddir, sərt və sözübütövdür .Qəmlonun cahil cəsarəti onu cismən öldürməyə çatsa da, mənən öldürməyə yetməz, çünki o milli ruhun daşıyıcısıdır. T.Salamoğlunun da dediyi kimi: "Xarakter millidirsə, deməli, o, yaşarıdır, heç vaxt "ölümə məhkum" ola bilməz. Yox, əgər "ölümə məhkum"dursa, onda milli deyil".

Abbasqulu bəyin duruşu, yerişi, baxışı, nitqi getdiyi hər yerdə imzası idi. O, ən çətin şəraitə belə elə bir damğa vurur ki, varlığı da, yoxluğu da eyni müdhiş dərəcədə hiss edilir. İnsan var varlığı ilə dünyaya heç nə verə bilmir, insan da var ki, ölümü ilə də hər iki dünyanı şərəfləndirir.

Romanda Abbasqulu bəyin ölümü ilə bərabər bir ağac təsviri də yer alır və mənə elə gəlir ki, bu baş qəhrəmanın - Abbasqulu bəy kimi bir igidin, el qeyrəti çəkən cəngavərin ölüm səhnəsinə ağac motivini əlavə etmək F.Kərimzadə kimi xalqının tarixi keçmişinə bələd olan, onun mədəniyyətini hər fürsətdə təbliğ etməyə çalışan yazıçının əsərə gətirdiyi təsadüfi detal deyil, əksinə, seçilmiş, düşünülmüş məqamdır. Çünki ağac kultunun Türk mədəniyyətinin mifoloji çağında mühüm yer tutması bütün dünyanın qəbul etdiyi bir faktdır. Əsərdən oxuyuruq ki, uçurumdan yuvarlanan Abbasqulu bəyin izi ilə Qəmlo bir palıdın yanına gəlib çıxır. Bu palıd çobanların ocaq yeridir həm də. Ortası oyuq palıd indi də Abasqulu bəyi gizlədir, ya da Qəmlonun düşündüyü kimi: "Abbasqulu bəyin öldüyü anda onu ayaq üstə saxlamaq üçün dayanıb".

Ağacın dini-fəlsəfi, bədii düşüncələrdə müstəsna yer tutaraq gələcək həyatı, dünyagörüşü istiqamətləndirən, formalaşdıran, həm də ilkin başlanğıcı simvollaşdıran obraz kimi Oğuzların düşüncəsində yer almasını xatırlayaraq qəhrəmanlıq dastanlarının mətnlərində də insan - ağac bağlantısı əski ritualına yönəlirəm. "Dədə Qorqud" da Basatın atası Aruzu anması motivi ağacın mifoloji ana statusunu səciyyələndiən:

Anam adın sorar olsan Qaba Ağac,
Atam adın diyirsən qağan Aslan,
Mənim adım sorursn Aruz oğlu Basat.

- sözləri səslənir qulağımda.

Və ya: "Uruzu qənarə ağacının dibinə gətirirlər qətlə yetirməyə, dedi: qoyun mən bu ağacla danışım:

- sənə "Ağac!" "Ağac!" deyirəmsə,
öyünmə, ağac!
...Məni səndən asarlar,
götürmə, ağac!
Götürsən, igidliyim səni tutsun, ağac!"

- məqamları yaddaşımda Abbasqulu bəyin son dəqiqələrinin təsvir olunduğu parça ilə örtüşür, eyniləşir.

Əsərin lap əvvəllərində öldürülən Abbasqulu bəy roman boyu oxucu ilə bir addımlayır, baş verən hadisələr ondan kənarda qalmır. Romanı oxuduqca daha aydın dərk edirsən ki, silahı alınaraq üsyançıların üstünə göndərilən Abbasqulu bəyin, Blez Paskalın təbirincə desək, "qüvvətə söykənməyən ədaləti aciz, Kərbəlayi İsmayılın isə ədalətə söykənməyən qüvvəti zalım " idi.

XX əsrin əvvəllərindəki Azərbaycanın, azərbaycanlıların dərin həyat fəlsəfəsi bu iki obrazda öz dolğun ifadəsini tapıb. Kərbəlayı İsmayıl da, Abbasqulu ağa da milli adət-ənənəyə sadiq qaldığına görə öz kişilik qururunu və daxili özgürlüyünü qoruyub saxlayır. Kərbəlayı İsmayılın bəzi mənfi cəhətləri olsa da, düşməni İmanın da, Usuboğlunun da inkar etmədiyi bir həqiqət var: həyatda namusla, alnıaçıq, üzüağ, mərd yaşayıb, yeri gələndə elin havadarına, köməyinə, arxa-dayağına çevrilməyi bacarıb. Bu obraz hərtərəfli, bütün mənəvi cəhətləri ilə kompleks şəkildə işlənmiş, öz dövrü, mühiti ilə vəhdətdə qələmə alınmışdır. Müşahidə etdiyimiz sərt mövqeyi Kərbəlayi İsmayılın tarixi ənənədən qəbul etdiyi və mühafizəkarlıqla daşıdığı daşlaşmış tarixi-milli normadır, onu dəyişdirmək, yumşaltmaq imkansızdır. Özünü çox zaman kontrolda saxlamağı bacaran Kərbəlayı İsmayıl ailəyə, qadına, dosta,qonağa, düşmənə münasibətdə milli ənənələrdən çıxış edir.Keyfiyyət insanın ruhundadır, həyat şərtlərində və ya yaşama səbəblərində deyil. Abbasqulu bəyin: "Topxanan yox, cəbbəxanan yox!" xitabına təmkinlə: "Namusumuz, qeyrətimiz var!" cavabını verən Kərbəlayı milli mentalitetinə söykəndiyi xalqın mənəvi gücünü önə çəkir. Qadınların dul, uşaqların yetim qalacağına diqqət çəkən Abbasqulu bəy dövrün reallığının daşıyıcısına çevrilir. Bu kimi ziddiyyətli fikirlər qəhrəmanların "dilini şərtləndirsə" də, onların emosional bədii təsvirindən, hiss və həyəcanlarının, duyğu və düşüncələrinin ifadəsindən hər ikisinin ortaq şəxsi keyfiyyətlərinin göstəricisi assosiasiyasını doğurur.

***(Davamı 3-cü səhifədə)***

*(Əvvəli 2-ci səhifədə)*

“Gözləri qırmızı rəngdən yorulan “Abbasqulu bəy qaranlıqdan çıxmağın yolunu onunla savaşmaqda deyil, günəş olub onu yox etməkdə gördüyü halda, Kərbəlayı İsmayıl əksini düşünür, buna baxmayaraq, tədqiqatçı alim romanın bədii mətn həqiqətlərinə baş vuraraq onların zidd qütblərdə deyil, eyni tərəfdə olduğuna bizi yazıçının özü qədər inandırır. O sübut edir ki, inqilaba münasibət tendensiyası ilə, Kərbəlayı İsmayıl əsərin mənfi qəhrəmanı kimi səciyyələnə bilməz. Təyyar Salamoğlu yazıçının da romanda bu prizmadan çıxış etdiyini əsərdən seçdiyi arqumentlərlə usta araşdırmaçı səriştəsi ilə təqdim edir.

Abbasqulu ağanın ölümündən sonra Kərbəlayı İsmayıl "dədə-baba" qaydası ilə dolanmağın, "at belində gəzib ağayanalıq etməyin "artıq mümkün olmayacağını bir daha yəqin edir, müstəqilliyin və sərbəstliyin itirilməsinə isə dözə bilmir, vətəni tərk edib gedir. Lakin unudur ki, yaşadığı yeri cənnət etmədiyi müddətcə insanın qaçdığı hər yer cəhənnəmdir. Kim bilir, bəlkə, elə bu düşüncə idi fars əsarətində olan doğma cənub ellərindən qayıdıb qardaş Türkiyəyə üz tutmasının səbəbi. O, qürbətə yol aldığı zaman düşünürdü: “Görəsən, qəbiristanlıq üzü görəcəyikmi, İlahi? Sakitcə öləm, qohum-əqrəba yığılıb çiyinlərində aparalar qəbiristanlığa. Bu dünyada sənin də üstündə bir yazı qala. Bilələr ki, belə bir adam varmış”. Amma Kərbəlayı İsmayıl onu da bilməyəcəkdi ki, doğma Vedibasardan min kilometrlərlə uzaq İğdırda 1948-ci ildə vəfat edəndə türk qardaşlarımız onu arzuladığı hörmət-izzətlə dəfn edən zaman başdaşına bu sözləri yazacaqdı: “Ermeni-Rus işğalçilerine karşı mücadilede kahramanlıklar göstermiş Kerbelayı İsmailin ve Ermeni Çetecilerinin katliamına maruz kalmış, öz yurtlarından, tarihi Azerbaycan-Türk toprakları olan Erivan, Vedibasar ve diger bölgelerden göçe zorlanmış soydaşlarımızın anısına...”.

Ən möhkəm zəncir ən çürük halqası qədər möhkəmdir. Bəlkə də Kərbəlayı İsmayıl bu mübarizədə Qəmlo ilə yanaşı olmasa idi, fərqli nəticələr əldə edərdi. Əsərdən oxuduğumuz təkcə “ Ovdan qayıdıb mağaraya girən ibtidai insan kimi baxırdı.”- cümləsi kifayət edər ki, Qəmlonun haqqında oxucu kimi fikrimiz formalaşsın. Qəmlo dostu da düşmən kimi görən, sevgisiz qəlb sahibi, tökdüyü qanın bəzən səbəbini belə bilməyən nanəcib, qan tökməyi peşə seçən, Abbasqulu bəyə için-için həsəd, paxıllıq bəsləyən, onun kimi olmağın yolunu bəyin papağında, atında axtaran, heç davranış və insaniyyəti ağlına da gətirməyən qanı donuq biridir. Kərbəlayı İsmayıl da həqiqəti görür, lakin həyat şərtləri onun Qəmlodan uzaqlaşmağına mane olur.O, Qəmlo haqqında: “İnsan belədi.Əlinə ixtiyar keçən kimi qudurur, başlayır pirinə təpik atmağa.Mən gətirib bu ayını adam eləmişəm, indi it kimi baldırıma ağız atır”-desə də, tədqiqatçı alimin də qeyd etdiyi kimi, sonda “Qəmlolaşır” və “namus davasına namussuzluq qatır”, həmişə yüksək dəyərləndirdiyi kişilik kodeksini özü pozur, mövcud mizanı özü dağıdır. “Düşünmədən danışmağın cəzası danışandan sonra düşünməyə məhkum olmaqdır” (H.Əli). Abbasqulu ağanın ölüm fərmanını imzalayan Kərbəlayı İsmayıl əbədiyən bu cəzaya məhkum qalmışdı. Mövlanə: “Dərd insana yol göstərir”-deyirdi. Bu dəfə, deyəsən, belə olmamışdı...Çünki insanın özünü tapa bilməsi yalnız kənar təsirlərdən azad olduğu zaman mümkün olur.

Daş da qiymətlidir əldən gedəndə,  
Mələk də səndədir, şeytan da səndə,  
Yaxşı da, yaman da, dost da, düşman da  
Sənin öz içində, öz içindədir

- deyirdi Bəxtiyar Vahabzadə də...

Deyirlər qartalları dimdikləməyə yeganə cəsarət edən quş qarğalardır. O, qartalın üstünə oturub boynunu dimdikləyər. Ancaq qartal buna əhəmiyyət verməz, qarğa ilə savaşmaz, vaxt itirmədən qanadlarını açar və havaya qalxar. Yüksəyə qalxdıqca qarğanın nəfəs alması o qədər çətinləşər ki, nəhayət, göyün dərin qatlarında oksigen çatışmazlığından düşər. Qartalın qalxa biləcəyi yüksəkliklər qarğaya görə deyil çünki...Romanı oxuyarkən Abbasqulu bəy - Talıbov xətti mənə bu hekayəti xatırlatdı. “Kitab oxumaqla bolşevik olmayan, həyatın içindən çıxan”, xalqımızın böyük oğulları N.Nərimanovun, Mirzə Cəlilin, Türk dünyasının əvəzsiz siması Atatürkün dostu olduğu vurğulanan Abasqulu bəyi bütün obrazlarla müqayisə edə bilərik. Amma onunla ən zidd qütblərdə dayanan adam Talıbovdur deyə düşünürəm. Qəmlo kimi bir adamı qəzetlə “öldür”məyi düşünən bir robot təsiri bağışlayan Talıbov.







Sovet repressiya maşınının işə düşdüyü zaman kəsiyindən bəhs edilir romanda. Tək inandığı şeyin “ qəzet, təbliğat” və “təmizləmə komisyonu-rentgen” olan, “bəy” sözünü “xalq düşməni” kimi görən Talıbovun davranış biçimi, şübhəçi yanaşmaları, illah ki günahkar axtarmaq cəhdləri represiyanın yanğınına körüklə gedənlərin ümumiləşdirilmiş obrazıdır. Abasqulu ağa nə qədər igiddirsə, Şabanzadənin təbirincə “hələ bişməmiş, çiy” Talıbov bir o qədər qorxaqdır. Abasqulu bəy nə qədər xalqın mənafeyini düşünürsə,Talıbov bir o qədər özünü düşünür, Abasqulu bəy nə qədər xalq təəssübkeşidirsə, Talıbov bir o qədər eqoist və özündənmüştəbehdir. Talıbov sapı özümüzdən olan baltadır- milli ruhun ən böyük düşmənidir. Və düşmən içəridən olanda qapı kilid tutmazmış..

Tarixi mənbələrdən oxuyuruq ki, o zamanlar Azərbaycan Xüsusi Xidmət Sahəsinin rəisi Xoren Qriqoryan, Naxçıvan Xüsusi Xidmət Sahəsinin rəisi Orbelyan və neçə-neçə soyadlarını Azərbaycan soy adı ilə dəyişdirmiş erməni əsilli “azərbaycanlı”lar mövqelərindən istifadə edib Njde Qareginin, Andronikin əməllərini davam etdirirdilər. Və tarixin dərin qatlarında o da gizlənir ki, Abbasqulu bəyin qiyamçıların üzərinə göndərilməsi onun öldürülməsi planının bir parçası idi.

Romanda tərəddüdlə də olsa, buna işarə edən cümlələrə də rast gəlirik.

“Mən bilmirəm bu inqilabçılara nə olub, neçəsi özünü gülləylə vurub” cümləsi, qiyamçıların sovet patronu işlətməsini Şıxəlioğlunun üzə çıxartması və Mərkəzin bundan “narazı” qalması, Abbasqulu bəy oraya gedəndə Böyük Vedidən Kərbəlayı İsmayıla gizli məktubun göndərilməsi, Əvəzova yazılan gizli məktub və onun intihara təşəbbüsü kimi mətləblərdən söz açılması, baş verən hadisələrə fərqli tərəfdən baxmağa sövq edir. Bəlkə də, Fərman Kərimzadə zamanı üçün həmin gizli mətləblərə bu qədər işıq tuta bilirdi və bəlkə də bu gün üçün mesaj göndərirdi.

Əvvəlki tədqiqatçılar öz düşüncələrində məsələlərə daha çox sovet ideologiyasının tələbləri ilə yanaşdıqlarından, yazıçının niyyətini dürüstlüklə açmağa çətinlik çəkmiş, obyektiv gerçəkliyin bədii inikas xüsusiyyətlərini tam şəkildə təhlil müstəvisinə gətirə bilməmişlər. Təyyar Salamoğlu bütün ruhi-mənəvi gücü ilə cəmiyyətə, insanlığın taleyinə bağlı ziyalı olaraq sovet ədəbiyyatşünaslığında sinfi mübarizə kontekstində dəyərləndirilən romanın sosial-siyasi mahiyyətini milli varlıq uğrunda mübarizə, antimüstəmləkə ruhunu ifadə edən və bu ruhun aparıcı qəhrəmanlarda- Abbasqulu bəy və Kərbəlayı İsmayılda gerçəkləşən məzmununu qabartmış,özünün ədəbiyyatşünas obrazı ilə yanaşı, milli təəssübkeş, əsl vətəndaş mövqeyini də yeri gəldikcə ifadə etmişdir. Alim dəlillərlə sübut etmişdir ki, Kərbəlayı İsmayılın məhvə və məğlubiyyətə məhkumluğu labüd deyil, o, digər bəylər kimi “qolçomaq” damğası vurularaq “sinfi mübarizə” adı altında milləti iki yerə parçalayıb onları üz-üzə qoyan, “parçalayıb hökm sürən” sovet rejim və ideologiyasının təkidi ilə məcburi məhv edilmənin aqibətini yaşayır. Obrazın ağrısını yaşamaq, onun mənəvi mühitini görmək çağdaş ədəbi–fəlsəfi fikrimizin güclü daşıyıcısı olan alimin əsərlərinin uğurunu şərtləndirən əsas cəhətdir. O, romanda milləti parçalayan motivin psixoloji köklərini, dəqiq müşahidələrlə, əsərin vacib məqamlarına əsaslanaraq dəqiq arqumentlərlə açır. Tədqiqatçının dönə-dönə vurğuladığı məqamlardan biri də əsərdə sinfi toqquşmaların təsvirindən daha çox, bu toqquşmaya qoşulanların daxili dünyası və mənəvi ovqatı, onların hərəkətlərini şərtləndirən daxili impulslardır. Fərdin ictimai-sinfi statusu, sosial mövqeyi və rolu onun əməl və hərəkəti ilə heç də həmişə düz gəlmir, insan heç özü də gözləmədən bu statusa kökündən zidd addım atmağa, sinfi mahiyyətə əks hərəkət xəttini həyata keçirməyə hazır olur. Buna görə də İnsanın xarakteri, hadisələrə münasibəti onun sinfi mənsubiyyəti ilə dəyərləndirilməməlidir. Tənqidçi qəbahətin də, fəzilətin də fərdi- psixoloji xüsusiyyət kimi hər bir təbəqənin, sinfin nümayəndəsinə xas ola biləcəyi fikrini əsaslandırır.

Nə bütün varlılar vicdansız, nə də bütün kasıblar vicdanlıdır. Bu daha çox şəxsiyyət və mənəviyyatla bağlı olan bir məsələdir. Monoqrafiyadan oxuduğumuz təkcə “Yazıçı Qəmlonu hansı məntiqlə Kərbəlayının yanında təsvir edirsə, həmin məntiqlə də Abbasqulu bəyi İmanın yanında təsvir edir” cümləsi bəs edir ki, romanın məqsədinin sinfi mübarizəni qabartmaq olmadığı, “başqa bir əhval-ruhiyyə ilə yazılmış, əsər üzərində işləyərkən yazıçı tamam başqa bir ahəngə köklənmişdir” fikrini doğrultsun.

Romanın bədii uğuru isə ancaq obrazlar toplusunun mükəmməliyi ilə bağlı deyildi, bu, problem - situasiyanın gərginliyi ilə də ölçülə bilməzdi, Fərman Kərimzadə sadəcə olaraq, xalqın genofonduna həkk olunmuş, unudulmasını istəmədiyi, dumanlar içində görünən keçmişini sovet ideologiyasının fokuslandırmasından kənarda təqdim edə bilmişdi. Yaşar Qarayevin də dediyi kimi: “Qarlı aşırım” ölüm, qorxaqlıq və onların hər ikisindən ucada duran insan və onun ləyaqəti barədə ibrətli hekayədir. Konkret inqilabi-tarixi motiv burada məhz ümumbəşəri əxlaq və mənəviyyat problemi səviyyəsinə qalxa bilir”. Bəli, "Qarlı aşırım" bizim xalq olaraq keçib gəldiyimiz yolların bir parçasıdır. O, elə bir yoldur ki, dəyişən zamanla bərabər, dəyərlərin, milli ruhun tərəddüdlər içərisində qalmasını gözləyə bilməz. Fərman Kərimzadə romanında bu yolun səmtini araşdırır, ölüm-qalım mübarizəsinə çevrilən ictimai hadisələrin epik lövhəsini təqdim edir.

Aşırımın zirvəsindəyəm... Zirvədən o yana eniş başlayır... Ən böyük müdriklik isə öz imkanlarının zirvəsinə çatanda dayana bilməkdir. “Qarlı aşırım” da sözün qalxa biləcəyi ən uca zirvədədir... Bu qədər dəyərli əsəri yazan böyük ürək sahibi Fərman Kərimzadənin özü kimi...

Elə yazıçı-publisist Əlirza Xələflinin sözləri ilə desək : “Təyyar Salamoğlu Fərman Kərimzadə ilə birgə sanki tarixin daha bir qarlı aşırımında – zirvədə dayanıb zülm və əzabla, ölümlərin və qanların üstündən keçib daha bir fəlakət aşırımınacan gələn yolun gerisinə də, gələcəyinə də baxır,özü də çox diqqətlə, can yanğısı ilə.”

Təyyar Salamoğlunun da milli varlığın tarixi taleyini tənqidi düşüncə istiqamətində diqqətlə izlədiyi bir yol var, o yol ki, İsmayıl Şıxlıdan Fərman Kərimzadəyə, eyni zamanda, Cahandar ağadan Kərbəlayı İsmayıla (“Dəli Kür”dən “Qarlı aşırım”a) aparır.

Yaxşı görmək üçün bəzən yaxınlaşmaq yox, uzaqlaşmaq lazımdır... Aşırımın qaşındayam... Hər tərəfi kəfən kimi bürümüş ağ qar gözümü qamaşdırır... Köz basılan yaramıza qar dolub, onun da üstünə qan çilənib; özümüz özümüzün qanını tökmüşük, özümüz özümüzü öz qanımızda boğmuşuq... Və günəş qarı əritdikcə o qan torpağın bağrına hopur, uğruna qanlar tökülmüş vətəni müqəddəsləşdirir.

Bəli, yol məni “Qarlı aşırım”ın sonuna gətirdi... Qəmlonu, Talıbovu unutmuşam... Qart daşları vətən edən, qanı qara çilənən, bir ovuc qaraca torpağı qiymətə mindirən, zirvədə qərar tutan oğullar qaldı yaddaşımda... Dumanlı dağlarda xeymə qururlar...

*27 iyul, 2021*